

# Aləm səhifəsinin əbədisi

Hər bir dövrün tarixi dəyəri onun öz zəmanəsinin tələblərinə verdiyi cavabla müəyyən olunur. Zaman isə təkcə vaxt ölçüsü deyil, ədəbiyyat üçün bəlkə daha çox insan meyarı - zəka və qəlb ölçüsüdür. Tarixin - zamanın necəliyi barədə həqiqətləri gələcək nəsillər həmin zamanda yaşamış insanların əməlləri ilə müəyyən edəcəklər. Bu baxımdan xalqımızın misilsiz sərvəti olan klassik və müasir sənətkarlar haqqında Prezident sərəncamları dövlətimizin tarixin - zamanın tələblərinə verdiyi ən mənalı cavablardır.

Azərbaycan xalqının bədii irsi təkcə yüksək estetik zövq mənbəyi, bədii gözəllik xəzinəsi deyil. Qədim və ulu xalqımızın fəlsəfi düşüncəsi, dünyagörüşü, adət və ənənələri, mənşəyi, ideologi-yası, həyat tərzi, psixologiyası, milli xarakteri kompleks şəklində ən aydın və ən ali səviyyədə məhz bədii ədəbiyyatımızda öz əksini tapıb. Buna görə də hələ müstəqilliyimizin ilk illərində Heydər Əliyev bu misilsiz milli sərvətə xüsusi qayğı ilə yanaşdı, irsə münasibətin nəzəri-metodoloji və dövlət konsepsiyasını işləyib hazırladı. Heydər Əliyev klassik irsə türk xalqlarını birləşdirən bir amil kimi dəyər verdi. Xüsusilə "Kitabi-Dədə Qorqud"un 1300, dahi M.Füzulinin 500 illik yubileylərinin ümumdünya və ümumtürk hadisəsi kimi keçirilməsi bu istiqamətdə mühüm əhəmiyyətə malik idi. Bu gün Azərbaycan Republikası Prezidenti cənab İlham Əliyev tərəfindən bu ənənə davam və inkişaf etdirilir. Şərqin böyük şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi ilə əlaqədar olaraq, 2019-cu ilin “Nəsimi ili” elan olunması və şairin yubileyinin keçirilməsi barədə verilən tarixi sərəncamı bu axının davamı kimi qiymətləndirmək olar. 2019-cu ilin “sultanı” İmadəddin Nəsimidir. Çün Nəsimi aləmin sultanıdır Dövr anın, dövran onun dövranıdır.

(Bax: səhifə 8-ə)

Aləm Səhifəsinin əbədisi

# Nəsimi poeziyasında can, cahan, canan



*Gülşən Əliyeva* Kəngərli
*professor*

***Canımın, cana vüsalın can içində candır***
***Canə canü canə canü həm cananadır.***
(2, səh.261)

Yaxın Şərqin və türk dünyasının qüdrətli filosof şairi İmadəddin Nəsiminin yaradıcılığını ifadə edən bir beyt seçməli olsaydım, onda məmnuniyyətlə məhz bu beyti seçərdim. Çünki, bu beytdə Şərqin ən coşğun, cəngavər şairi, əqidəsi yolunda dərisi soyulmuş cəsarət və kamillik rəmzi Nəsiminin poeziyasının ideya-fəlsəfi əsasını təşkil edən əsas atributları bu beytdə sənətkarlıqla poetikləşib. Hesab edirik ki, Nəsiminin poeziyasının bədii-fəlsəfi hüsnünü təmsil edən bu atributlar şairin yaradıcılığı boyunca şərh etmək Nəsimini dərk etməyə imkan verir.

Nəsimi poeziyasında Can, Cahan, Canan sufizm-hürufizm müstəvisində münasibətlə bağlı bir neçə mötəbər fikrə nəzər salmaq vacibdir. Altı cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin üçüncü cildində yer almış "İmadəddin Nəsimi (1369-1417)" oçerkində (müəlliflər akademik T. Kərimli və S. Şıxıyeva) belə bir maraqlı mülahizə irəli sürülür: "Nəsimi şeirində müxtəlif fəlsəfi-dini qatlar yaratması ilə nəzəri cəlb edən "can" (ruh) məzacı ən çox "cahan" və "canan" sözləri ilə yanaşı işlədilir. Şair "can" məzacını "canan" ifadəsi ilə eyni bir mətn (beyt yaxud misra) daxilində işlətdikdə ümumiyyətlə ruhi-cüzi, insanın ruhunu, həmin rəmzi deyimi - "can"ı "cahan" ifadəsi ilə yanaşı verdikdə isə kiçik aləm (mikrokosm) sayılan insanı nəzərdə tutur. Bu iki anlam mahiyyətcə yaxın olsa da, yaratdığı məna çalarları baxımında fərqlənir. Birinci halda can məzacı insanın təkcə ruhu, ikinci halda isə insan ilə əlaqəli "mən cahanında" olan ruhu anlamda istifadə olunur.

Nəsimi şeirində "iki cahan", "canü cahan", "kövnü-məkan" kimi ifadələrin məna tutumu eyniyyət təşkil edəcək qədər yaxındır. Şairin bu ifadələri ilahi həqiqətini sirləri ilə dolu olan kainatın - makrokosm ("cahan") və dünyanı özünü tam inkarını tapdığı mikrokosm ("can") anlamlarını daşıyır" (1, səh.228)

Biz elə düşünürük ki, "can", "cahan" və "canan" anlamlarını bir birindən təcriddə dərk və izah etmək mümkün deyil, belə izah dialektik xarakter daşıya bilər. Çünki bu sufizmdə (və hürufizmdə) bir biri ilə vəhdətdə olan bu anlayışlar: cahan-insan-Allah anlamını ifadə edir. Allah, insan, cahan münasibətləri yaradanın və yaranmışın - dünyanın özünün və oradakı canlı və cansız varlıqların, habelə səmanın izahına imkan verir. Hürufilər bu əsaslı üçlüyə SÖZ-ü də əlavə etdilər. Halbuki, SÖZ insandır, insan SÖZ-dən ibarətdir, SÖZ ruhun timsalıdır:

*Dinləgil bu sözü ki, candır söz,*
*Aliyü asiman məkandır söz. - və həm də*

*Mən mülki-cahan, cahan mənəm mən!*
*Mən həqqə məkan, məkan mənəm mən!*
(2, səh.321)

Beləliklə "söz candır" və can-ruh olan söz ali-ilahi asimanda məkan bulmuş varlıqdır. İkinci beytdə: Mən mülki-cahan- kainatın mülküyəm, kainatam, Allahın bərqərar olduğu məkanam, başqa sözlə haqq - Allah məndə yerləşir. Əgər can varsa, onda söz də var və o da cahan kimi, canan (Allah) kimi məhz canda, insanda yerləşir. Akademik İsa Həbibbəyli yazır: "Fikrimizcə İmaddədin Nəsiminin "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" misrası ilə başlanan məşhur şeiri İmaddədin Nəsiminin mükəmməl avtoportretidir. "Sığmazam" şeiri cahana sığmayan böyük Azərbaycan şairinin əsrlərdən-əsrlərə qədər gəlib çatan və yaşamaqda davam edən məğrurluq manifestidir. Şeirdəki yenilməz dağlar kimi parlaq və əzəmətli görünən lirik mən "can ilə həm cahan mənəm, dəhr ilə həm zaman mənəm" - deyən İmaddədin Nəsiminin cahana və zamana sığmayan proobrazıdır. Bu Şərq poeziyasında insan haqqında ən möhtəşəm poetik monoloqdur." (3)

Nəsimi şeirində canan konkret insan, sevgili mənasında işlənmir, bunu ifadə etmək üçün şair "Dilbər" sözü işlədir:

*Dilbəra, mən səndən ayru ömrü canı neylərəm?*
*Tacü təxtü mülkü malü xanimanı neylərəm?*

*İstərəm vəsli-camalın ta qılam dərdə dəva,*
*Mən sənin bimarınam, özgə dəvanı neylərəm?*

*Ey müsəlmanlar, bilin kim, yar ilə xoşdur cahan,*
*Çünki yardan ayru düşdüm, bu cahanı neylərəm?*
(2, səh.142)

Akademik Nizami Cəfərov "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" poetik bəyanatını şərh edərək yazır: "Şair, mütəfəkkir "sufi-panteist" "mən" ilə qarşı qarşıya qoyulan əsas anlayışı "cahan"dır. Yəni, dünya özü də iki cahandan söhbət gedir. Yəni klassik İslam məfkurəsinin kanonik olaraq qəbul etdiyi bu dünya ilə o dünya!" (5)

"Cahan"ı - hər iki dünyanı İnsana, yaxud İnsanın "cahan"a hər iki dünyaya bağlayan əsas varlıq isə "can"dır. Nəsiminin bir çox şeirlərində bu fikir obyektiv həqiqət kimi öz əksini tapır:

*Mana sənsiz cahanü can gərəkməz,*
*Vüsalın var ikən hicran gərəkməz.*

*Qəmindir könlümün taxtında sultan,*
*Bir iqlimə iki sultan gərəkməz. (2, səh.70)*

*Yandırdı şövqün canımı, ey dərdə dərman, qandasan?*
*Canımda can sənsən, vəli, istər səni can, qandasan?*
(2, səh.151)

Görkəmli füzulişünas alim Əkrəm Cəfər Nəsimi fəlsəfəsinin təcəssümündə poetikanın rolundan bəhs edərək yazıb: "Nəsimi poetikası şeirimizdə sabiqədir. Bu poetika tamamilə orjinal Nəsimidən qabaq bizdə nümunəsi olmayan dil obrazları sistemidir. Bu cəhətdən münasib bir böyük novator olmuşdur. Böyük şairin poetik fərdiyyətini, bədii şəxsiyyətinin özünəməxsusluqlarını açmaq, bizim filoloji elmimizin vəzifələrindəndir." (6) Bu ecazkar poeziyada sözün məqamı və gizlinlərini akademik Rəfael Hüseynov da diqqətə çəkir. "Nəsimi poeziyasında lay-lay mənalar və hər sözün nüvəsində bir başqa söz, onun da çəyirdəyində bir ayrı mətləb yerləşdirib." Bu mətləbləri açmağın açarı Nəsimi şeirlərindədir.

Ortodoks müsəlman düşüncəsinə və ona əsaslanan sufizmə görə yeri və göyü bir söz "kun" sözü ilə yaradan Allah mövcud olan hər şeydə görünür və hiss olunur. "İnsan haqdan qopmuş nur parçasıdır" hürufi düsturunda insan yaranmışların hamısından uca məqamda təsəvvür olunur. Ənəl-həq təlimi ilk növbədə insanla bağlıdır. Bu təlim insanda Allahın əlamətləri olduğunu iqrar edir: Hürufiliyə görə insanın üzündə, surətində Allah, söz yazılıb:

*Gözləri, qaşı ənəlhəq çağırır,*
*Gör bu sirri kimsə pünhan eyləmiş.*

Nəsiminin "əlif lam və tərs əlifba" silsilə şeirlərində qul haqları poetik məna verir. İnsanın surətini oxunmamış kitabdır. Bunu tale kitabı adlandırmaq olar. "Can"a, "Cahan"a və "Canan"a məhz insanın surətindən, tale kitabından keçib getmək olar:

*Surətə baxu mə'nini surət içində tanı kim,*
*Cism ilə can mənəm, vəli cism ilə canə sığmazam.*
*Can ilə həm cahan mənəm, dəhrilə həm zaman mənəm,*
*Gör bu lətifeyi ki mən, dəhru zəmanə sığmazam.*
(2, səh.319)

"Cism ilə can mənəm" - mən bədənlə ruhun vəhdətiyəm, insanam. "Can ilə həm cahan mənəm" - ruhu ilə kainat mənəm - insanam. Lakin mən həm də o insanam ki, cismim ilə cana, can ilə cahana sığmazam - mən Allaham.

*Canənə mənim sevdiyimi can bilir ancaq,*
*Könlüm diləyin dünyada canan bilir ancaq.*
(2, səh.28)



Cananə - ey dilbər (ey insan) mənim sevdiyimi can - ruh bilir, ancaq könlümün dilini canan Allah bilir, ancaq "Qurani-Kərim"də deyilir ki, insan Allah əmanəti olan ruhun - canın düaşıyıcısıdır, can - sevgi yuvasıdır.

*Gəl, ey könlümdə can, canda bədənsən,*
*Nə candansan, əcəb kim, canü tənsən.*

*Səni dil necə şərh etsin, a can, kim,*
*Nə bilsinlər səni kim, can, nədənsən?*

*Üzün çün "qülhüvəllahü əhəd"dir,*
*Həqiqət mö'cüzi, həqdən gələnsən.*

*Vücudin zati-mütləqdir, məgər, kim,*
*Nəyə kim baxar isəm anda sənsən.*

*Nə yerdənsən, səni heç kimsə bilməz,*
*Məgər cənnət təki hübbül vətənsən.* (2, səh.162)

Nəsimi şeirində "iki cahan" həm eyb aləmi - görünən insan idrakı ilə dərk olunan aləm və həm qeyb aləmi gözlə görünməyən, pərdəsi arxasında olan yalnız fəhm sahiblərinə məlum olan aləm. Akademik Nizami Cəfərov yazır: "Nəsiminin fəlsəfi-poetik təfsirində can həm cahanın, həm də onun "dünya"nın şövqündə can olan mənin strukturuna daxildir. Ona görə də kifayət qədər ziddiyyətli, yaxud dialektik anlayışdır. O mənada ki, "can" həm maddidir (bədən), həm də mənəvi (ruh). Və mənin eşqə düşərək (üsyan edərək) "cahan"dan ayrılıb, Tanrıya qovuşdurmaq istəyəndə bütün ziddiyyətli və (dialektik) tərəfləri ilə birlikdə "can"dır.(5)

*Can eşqə düşdü, ey könül, yarəb, nədir tədbirimiz?*
*Can neyləsin, biçarə, çün həqdən budur tədbirimiz.*

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Canın, insanın ruhunu və bədəninin (sürətinin) cahana külli-aləmlə, kainatla, Ay və Günəşlə, və cananla mütləq həq ilə yaradanla, Allahla (Tanrı ilə!) vəhdəti Nəsimi şeirində poetik fəlsəfi sistem halındadır. Bütün sufilərdən fərqli olaraq Nəsimi təkcə Allah öz yaradıcılığını insana aid etdirməkdə kifayətlənmir, qarşılıqlı olaraq həm də insanda olan ən qiymətli sifətləri aşkara çıxarıb Allaha bənzərliliyi, öz gözəlliyi və mənəvi ucalığı ilə Allaha yaxın olduğunu sübut etməyə çalışır:

*Üzün bədri cahanın danəsidir,*
*Yerü göy, ayü gün pərvanəsidir.* (2, səh.281)

İnsan Allaha bağlayan, yüksəldən "can"dır. Can eşqin yuvasıdır. Eşq və istedad Allahın insana bəxş etdiyi elə qüdrətdir ki, onlarla insan həm yaşayır, həm də yaradır. "Tanrı özünün kimliyinin sübutu üçün təbiəti (insanla birlikdə) insan kimliyini əyan etmək üçün sənəti yaradıb" (Y.Qarayev). Sufizmin (və hürufuzmin) əsasında dayanan "vəhdəti-vücud" fəlsəfəsinə görə zərrədə külli görmək məhz can, cahan və insanın birliyi sayəsində mümkündür.

*Zərrə mənəm, günəş mənəm, çar ilə pəncu şeş mənəm,*
*Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam.*
(2, səh.320)

*Zərrədə küllü görmək irfan əhlinin ariflərin işidir.*

Yaxud:

*Mən mülki-cahan, cahan mənəm mən!*
*Mən həqqə məkan, məkan mənəm mən!*

*Mən ərşilə fərşü kafünunam,*
*Mən şərhü bəyan, bəyan mənəm mən!*
(2, səh.387)

Şair özünü həm cahan mülki - kainat, həm də həq-təalanın - Allahın olduğu yer hesab edir. Deyir ki, ərş yerlər və fərş göylər Allahın ilk kəlməsinin "kün" - ol sözünü əmələ gətirən kaf və nun hərfləri kimi məndə birləşib.

Nəsimi çox qürurlu olub. Cəmi 48 il ömür sürən bu poeziya və fikir cəngavəri əqidəsindən dönüb qürurunu sındırmamaq üçün cəsarət və vüqarla edama gedib. Bu qürur təkcə onun həyatında və şəxsiyyətində deyil, dünya şöhrətli poeziyasında da öz əksini tapıb:

*Bir günəşdir Nəsimi kim, anın*
*Neçələr zərrəsinə möhtacdır.*
(2, səh.340)

# Nəsimi poeziyasında Can, Cahan, Canan

Həqiqətdə sufi-mistik mənasından başqa Nəsimi bir poeziya günəşi idi. Bu günəş Şərq və türk müsəlman aləmini 650 ildir ki, irfan nuruna qərq edib, milyonlarla ürəkləri öz hərarəti ilə qızışdırmaqdadır. Nəsimi Fəzlullah Nəimini kitablarında, xüsusən "Cavidannamə" traktatında quru bir nəzəriyyə olan hürufizimə canlı həyat verdi, onu şeirin dili ilə gücləndirdi, Yaxın Şərq və bütün türk dünyasına yaydı. Hürufizm Nəsimi poeziyası vasitəsilə ictimai-tarixi gücə, fəlsəfi təlimə çevrildi. Şair axıra qədər "Fəzli-həqq"ə sadiq qaldı. Həm də özü böyük tarixi bir nümunəyə, fədakarlıq simvoluna çevrilərək əbədiyyət qazandı. Nəsimi özündən sonra gələn Yaxın Şərq şairlərinə, xüsusən türk ədəbiyyatına - Əlişir Nəvai və Mövlana Məhəmməd Füzuli kimi dahilərin yetişməsini səmərəli təsir göstərdi.

Nəsimi özü də təfəkkürünün və yaradıcılığının bütün şaxələri ilə Xaqani, Nizami, Mövlana Cəlaləddin Rumi kimi korifeylərin sənət ənənələri ilə başlıcası isə klassik sufilər - Mənsur Həllac, Fəriddədin Əttar, Salman Savəci, Hafiz Şirazi ilə bağlı idi. Ümumən orta əsrlərdə IX-XIX əsrlərdə Şərqin, o cümlədən türk dünyasının sənət və fikir adamları ən böyük və dərin fəlsəfi cərəyan olan sufizm - təsəvvüflə bu və ya başqa dərəcədə bağlı olmuşdur. Bir faktı da qeyd etməliyik ki, həm "Quran" ayələri, həm də "Quran" qissələri Nəsimi poeziyasının bədii-fəlsəfi qaynağı, onun şeirinin rüknləri olmuşlar.

Bütün Şərqdə, o cümlədən də Azərbaycanda orta əsrlər VIII-XVIII əsrlər ədəbi-mədəni və nəzəri-fəlsəfi fikir tarixində ikinci xüsusi mərhələ təşkil edir. Birinci xüsusi mərhələ olaraq Abbasilər dövrünü (750-1258) qeyd etmək olar. Bu ümumi müsəlman mədəniyyəti epoxası idi. Antik yunan fəlsəfəsinin Şərqə daxil olması bu dövrün hadisəsidir. Bu həm də Şərq - Azərbaycan intibahı mərhələsidir. Nəsimi orta çağlar təşəkkül dövrünün dahisidir. Bu dövrün unikal hadisəsi ana dilinə - türk uklonuna keçidlə bağlıdır. Bu keçidi ilk dəfə sistemli tərzdə Nəsimi icra etdi, o Şərqin üç əsas dilində - ərəb, fars və türk dilində şeir icad etdi. Füzuli bu ənənəni sənət zirvəsi məqamına yüksəltdi, türk dilini ərəb və fars dilləri ilə eyni mərtəbəyə qaldırdı...

Nəsimi yaradıcılığı şeirdə cəngavərliyi, ehtirasın poetik ifadəsi olan bədii pafosu, eyni zamanda, frazeoloji düşüncənin məcaz və müəmmanın, metafora və istixarənin bədii fəlsəfi sistemidir. Bu sistemi kül halında açmaq üçün "Quran"ı və dini mistikanı, sufizm və platonizmi, əbcəd hesabını və əruzu dərindən bilmək lazımdır. Onun şeiri, ədəbi-bədii təfəkkür və dünyagörüşü hadisəsidir. Dahi Füzulinin sözləri ilə desək, Nəsiminin "şeir fəziləti də ayrı bir elmdir". Bu dərin elmi əsası olan meditativ şeir, fikir və hissin vəhdətindən yaranmış şeirdir. Hərf, səs və söz bu poeziyada bütün qüdrəti və fəlsəfi tutumu ilə çıxış edir. Zənn edirəm Füzuli zirvəsindən Nəsiminin yaradıcılığı daha siqlətli və tutumlu görünür.

***(Davamı var)***